# AZƏRBAYCAN RESPUBLİKASININ
# İNSAN HÜQUQLARI ÜZRƏ MÜVƏKKİLİNİN (OMBUDSMANIN)
# BİRİNCİ QARABAĞ MÜHARİBƏSİ DÖVRÜNDƏ İTKİN DÜŞMÜŞ
# AZƏRBAYCANLILARLA BAĞLI

## HESABATI



**Bakı - 2023**

# M Ü N D Ə R İ C A T


GİRİŞ....................................................................................................................3

1. BİRİNCİ QARABAĞ MÜHARİBƏSİ..........................................................................5

2. MÜHARİBƏ NƏTİCƏSİNDƏ İTKİN DÜŞMÜŞ ŞƏXSLƏR...............................................8

3. OMBUDSMANIN İTKİN DÜŞMÜŞ ŞƏXSLƏRLƏ BAĞLI FƏALİYYƏTİ.........................13

4. İTKİN DÜŞMÜŞ ŞƏXSLƏRİN YAXINLARI VƏ ERMƏNİSTAN TƏRƏFİNDƏN GİROVLUQDA SAXLANMIŞ ŞƏXSLƏRLƏ KEÇİRİLƏN GÖRÜŞLƏR..........................18

NƏTİCƏ..................................................................................................................29

# GİRİŞ

Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü ilə başlamış müharibə saysız-hesabsız faciələrə, hərbi cinayətlərə, insan hüquq və azadlıqlarının kobud şəkildə pozulması hallarına səbəb olmuş, bölgədə humanitar fəlakət yaratmışdır. Münaqişənin bugünədək aktual olan ən ağır nəticələrindən biri isə 4000-ə yaxın azərbaycanlının hələ də itkin hesab olunmasıdır. 30 ilə yaxındır ki, Ermənistan tərəfi itkin hesab olunan həmin şəxslərin sonrakı taleyi barədə məlumat verməkdən yayınır.

Təəssüf doğuran məqamlardan biri də odur ki, Ermənistanın əsir və girovluğundan azad edilmiş şəxslərin ifadələri azərbaycanlılara qarşı müxtəlif işgəncələr verilməsi, qeyri-insani rəftar və qətlə yetirilmə hallarını təsdiq edir. Həmin şəxslər bu gün də bu travmaların izlərini daşıyırlar. Belə ki, itkin düşmüş şəxslər arasında Ermənistan silahlı qüvvələri tərəfindən işğal zamanı girov götürülmüş mülki şəxslər də vardır. Halbuki beynəlxalq humanitar hüququn bununla bağlı tələbləri aydındır: “Müharibə zamanı mülki şəxslərin müdafiəsi haqqında” IV Cenevrə Konvensiyası və I Əlavə Protokola əsasən, mülki şəxslərin girov götürülməsi birbaşa göstərişlə qadağandır.

İkinci Qarabağ müharibəsindən sonra Azərbaycanın işğaldan azad edilmiş ərazilərində aparılan axtarışlar zamanı çoxsaylı kütləvi məzarlıqlar aşkarlanmışdır ki, burada tapılan insan qalıqlarının Birinci Qarabağ müharibəsində itkin düşmüş şəxslərə aid olması ehtimal edilir. Azərbaycanlı itkinlərin ailə üzvləri hər dəfə azad edilmiş ərazilərdə bu cür məzarlıqların tapılması xəbərindən təsəlli tapırlar, çünki hər ötən il doğmalarının sağ qayıtması daha qeyri-real göründükcə, ən azı onların əsirlikdə qalaraq işgəncələrə məruz qalmadığını bilmək və ya qalıqlarını dəfn edərək məzarlarını ziyarət edə bilmək ümidi ilə yaşayıblar. Təəssüf ki, Ermənistan tərəfi beynəlxalq hüquqi öhdəliklərinə və bununla bağlı çoxsaylı çağırışlara baxmayaraq, bu məsələdə də əməkdaşlıqdan boyun qaçırmış və dəfn yerləri ilə bağlı məlumatları təqdim etməmişdir. İşğal dövründə Ermənistan tərəfindən həmin ərazilərin minalanması və bugünədək dəqiq mina xəritələrinin verilməməsi də bu prosesi ləngidir.

Bütün bunlar beynəlxalq hüquqa qarşı açıq hörmətsizliyin göstəricisidir. Belə ki, beynəlxalq humanitar hüquq şəraitin imkan verdiyi hallarda ölən şəxslərin ayrı-ayrı dəfn edilməsini tələb edir. Meyitlərə hörmət edilməli, onlar ləyaqətlə dəfn edilməli, dəfn yerləri asanlıqla tapılması və qorunması məqsədilə işarə edilməlidir. Cenevrə Konvensiyalarına I Əlavə Protokolda hərbi əməliyyatlar və ya işğal zamanı, yaxud saxlanma yerində ölən şəxslərin qalıqlarına hörmət göstərilməsi və mümkün olduğu halda onların ailələrinə qaytarılması nəzərdə tutulmuşdur (Maddə 34).[1]

Təəssüf ki, bu gün də dünyada münaqişələr davam edir, insanlar müxtəlif səbəblərdən itkin düşür və onların taleyi qlobal problem olaraq qəbul edilir. Belə ki, doğmalarının sağ olduğu və ya öldüyü məlum olmadığından itkin düşmüş şəxslərin ailələri həm daimi olaraq psixoloji sarsıntı və nigaranlıqla yaşamalı olur, həm də itkin düşənin ailədəki rolundan asılı olaraq iqtisadi və digər çətinliklərlə qarşılaşırlar. Sayı dörd minə yaxın olan itkin düşmüş azərbaycanlıların ailə üzvləri 30 ilə yaxındır ki, bu iztirablı taleyi yaşayır. Bəzi ailələrdən hətta bir neçə şəxs eyni vaxtda itkin düşmüşdür.

İtkin düşən azərbaycanlılarla bağlı məlumatların əldə edilməsi məqsədilə Beynəlxalq Qırmızı Xaç Komitəsi (BQXK) ilə əməkdaşlıqda bir çox işlər görülsə də, gözlənilən nəticə əldə edilməmişdir.

1https://www.icrc.org/en/doc/assets/files/other/icrc_002_0321.pdf

27 sentyabr-10 noyabr 2020-ci il tarixlərində baş vermiş İkinci Qarabağ müharibəsi nəticəsində Azərbaycanın torpaqlarının işğaldan azad edilməsi və tarixi ədalətin bərpasından sonra itkin şəxslərin ailələrinin onlar barədə məlumat almaqla bağlı ümidləri artmışdır.

Artıq münaqişənin həll edilməsi ilə müharibənin vurduğu dərin yaraların sağaldılmasına çalışılır. Bütün bölgə üçün həyati əhəmiyyət kəsb edən bu proses isə yalnız hər iki tərəfdən cəhdlər göstərildikdə mümkündür. Belə ki, itkinlərin taleyi ilə bağlı məsələyə aydınlıq gətirilməməsi xalqlar arasında dayanıqlı sülhyaratma prosesi üçün də bir əngəldir.

BMT Təhlükəsizlik Şurasının 11 iyun 2019-cu il tarixli 2474 saylı qətnaməsində də itkin hesab olunan şəxslərin axtarışı, qalıqlarının qaytarılması və onlarla bağlı cavabdehliyin təmin olunması ilə bağlı bütün mümkün tədbirlərin görülməsinə çağırış edilməklə yanaşı, silahlı münaqişə nəticəsində itkin düşənlərlə bağlı məlumatların təqdim edilməsinin sülhyaratma prosesinə töhfə verə biləcəyi vurğulanmışdır.[2]

Qeyd olunan problemin ciddiliyi və həssaslığı nəzərə alınmalı, dövlətlərin öhdəliklərini yerinə yetirməsinə səmərəli nəzarət mexanizmi olmalı, itkin düşmüş şəxslər və onların ailə üzvlərinin hüquqlarının müdafiəsi naminə səylər birləşdirilməlidir.

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) 30 Avqust – Beynəlxalq İtkin Düşmüş Şəxslər Gününə həsr edilən bu hesabatı da məhz itkin düşmüş azərbaycanlılarla bağlı məlumatların ətraflı şəkildə qeydə alınması, bu məsələnin beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılması və onların taleyi haqqında məlumatların təmin edilməsi məqsədilə hazırlanmışdır.

### *Metodologiya:*

Hesabatda Birinci Qarabağ müharibəsi və nəticədə itkin düşmüş şəxslər barədə aidiyyəti milli və beynəlxalq qurumlarla əməkdaşlıqda əldə edilmiş məlumatlar toplanmış və təhlil edilmişdir. Həmçinin Ombudsmanın bugünədək bu sahədə həyata keçirdiyi fəaliyyət, bununla bağlı yerli və xarici mətbuatda yayımlanmış informasiyanın ümumiləşdirilməsi aparılmış, foto və video materiallardan istifadə edilmişdir.

Hesabatın hazırlanması zamanı əsas mənbə kimi bir sıra itkin düşmüş şəxslərin ailələri, habelə Ermənistan tərəfindən girovluqda saxlanılmış şəxslərlə keçirilmiş görüşlər nəticəsində əldə edilmiş faktoloji materiallara yer verilmişdir. İtkin düşmüş şəxslərin ailə üzvləri ilə Ombudsman və onun nümayəndələri tərəfindən görüşlər keçirilmiş, onlardan zəruri məlumatlar toplanmış, müraciətləri qeydə alınmışdır. Həmin şəxslərin razılığı əsasında onların təqdim etdikləri və görüşlər əsnasında çəkilmiş fotolardan istifadə edilmişdir.

2https://digitallibrary.un.org/record/3808667

## 1. BİRİNCİ QARABAĞ MÜHARİBƏSİ

Azərbaycana qarşı əsassız ərazi iddialarından əl çəkməyən Ermənistanın uzun illər boyu azərbaycanlılara qarşı həyata keçirdiyi nifrət, etnik təmizləmə, soyqırımı və işğalçılıq siyasəti nəticəsində ölkəmizin ərazi bütövlüyünə qəsd edilmiş, dinc azərbaycanlı əhaliyə qarşı çoxsaylı cinayət aktları, xüsusilə də sülh və insanlıq əleyhinə, habelə müharibə cinayətləri törədilmişdir.

Ermənistan öz mənfur məqsədinə nail olmaq üçün azərbaycanlıları planlı və mərhələli şəkildə Qərbi Azərbaycan ərazisindəki tarixi ata-baba torpaqlarından məcburi qaydada deportasiya etmişdir. Bundan əlavə, Azərbaycanın Qarabağ bölgəsində, eləcə də Ermənistanda yaşayan azərbaycanlılara qarşı mülki şəxslərin ölümü, azərbaycanlı qaçqın və məcburi köçkünlərin axını ilə nəticələnmiş qanlı hücumlar həyata keçirilmişdir.





1987-ci ilin sonunda Ermənistan açıq şəkildə Azərbaycanın Qarabağ bölgəsinə iddia qaldırmış və bundan bir müddət sonra azərbaycanlılar kütləvi şəkildə Ermənistandan qovulmuşdur.

Qeyd etmək lazımdır ki, 1948-1953-cü illərdə 150 min nəfər, 1988-1992-ci illərdə isə 250 min soydaşımız indiki Ermənistan ərazisindən, azərbaycanlıların tarixən yaşadıqları ata-baba yurdundan zorla çıxarılmış və 229 nəfər azərbaycanlı vəhşicəsinə qətlə yetirilmişdir.

1988-ci ilin yanvarından etibarən “Azərbaycanlılarsız Ermənistan” siyasətini planlı şəkildə həyata keçirməyə başlayan Ermənistan hökuməti, “Qarabağ” və “Krunk” komitələri, Eçmiədzin kilsəsinin nümayəndələri keçmiş SSRİ rəhbərliyinin himayəsi ilə azərbaycanlıların qovulması prosesində minlərlə qanlı aksiyalar törətmişlər.

Paralel olaraq Azərbaycanın Qarabağ bölgəsinin dağlıq hissəsində də başlayan münaqişə nəticəsində Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları və etnik azərbaycanlıların Ermənistan ərazisindən deportasiya olunması prosesi daha da kəskin fazaya keçmişdir. Qarabağın dağlıq hissəsindəki kəndlərdə məskunlaşan azərbaycanlılara qarşı silahlı hücumlar təşkil edilmiş, mülki əhaliyə qarşı terror aktları törədilmişdir.

Ermənistanın Azərbaycana qarşı nifrət, etnik təmizləmə, soyqırımı, əsassız ərazi iddialarına söykənən işğalçılıq siyasəti nəticəsində 1991-ci ilin sonu - 1992-ci ilin əvvəllərində Ermənistanla Azərbaycan arasındakı münaqişə hərbi mərhələyə keçmişdir.

BMT Təhlükəsizlik Şurasının 1993-cü il tarixli 822, 853, 874 və 884 saylı qətnamələrində Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal edilmiş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılması tələb edilmişdir. Eyni zamanda, BMT Baş Assambleyasının “Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət” adlı 2006 və 2008-ci il tarixli qətnamələrində, habelə İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı, ATƏT, Avropa Şurası Parlament Assambleyası, Avropa Parlamenti və digər bu kimi beynəlxalq və regional təşkilatlar tərəfindən qəbul edilmiş müvafiq qərarlarda da Ermənistan silahlı qüvvələrinin işğal edilmiş Azərbaycan torpaqlarından çıxarılması tələbi öz əksini tapmışdır.

Tərəflər arasında atəşkəsə dair razılığın əldə olunduğu 1994-cü il 12 may tarixinə qədər Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycanın 20 faiz ərazisi –Xankəndi şəhəri, Xocalı, Şuşa, Laçın, Xocavənd, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan rayonları, həmçinin Tərtər rayonunun 13, Qazax rayonunun 7, Naxçıvanın Sədərək rayonunun isə 1 kəndi Ermənistan ordusu tərəfindən işğal olunmuşdu.

Münaqişənin nizamlanması üçün 1994-cü ildə Ermənistanla Azərbaycan arasında atəşkəs sazişi imzalandıqdan sonra Amerika Birləşmiş Ştatları, Rusiya və Fransanın həmsədrliyi ilə ATƏT-in Minsk qrupu yaradılmışdır. Münaqişənin həlli ilə bağlı tərəflər arasında vasitəçilik missiyasını həyata keçirən ATƏT-in Minsk Qrupunun və digər beynəlxalq qurumların BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icrasına nail olmaqla Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi hərbi təcavüzün nəticələrinin aradan qaldırılması üzrə 30 ilə yaxın bir dövr ərzində apardıqları sülh danışıqları Ermənistanın destruktiv mövqeyi səbəbindən heç bir nəticə verməmişdir.

Dünyada BMT Təhlükəsizlik Şurasının qətnamələrinin bəzi ölkələrə münasibətdə bir neçə gün ərzində icra edilməsi təcrübəsinin mövcud olmasına baxmayaraq, Azərbaycanın xeyrinə qəbul edilmiş həmin qətnamələrin və digər beynəlxalq sənədlərin icrası istiqamətində uzun müddət ərzində heç bir əməli addım atılmamış, orada öz əksini tapmış müddəalar sadəcə kağız üzərində qalmışdır.

Buna görə də, beynəlxalq səviyyədə hər hansı bir təzyiqə məruz qalmayacağına əmin olan və bundan daha da ruhlanan Ermənistanın siyasi-hərbi rəhbərliyi cəzasızlıq mühitindən istifadə edərək, Azərbaycana qarşı sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, terrorçuluq, terrorçuluğu maliyyələşdirmə ilə əlaqədar cinayət əməllərini törətməkdə davam etmişdir.

Azərbaycan tərəfindən Ermənistana dəfələrlə xəbərdarlıqların edilməsinə baxmayaraq, qarşı tərəf təcavüzkar siyasətini davam etdirərək içərisində əhalinin sosial cəhətdən həssas qruplarının (uşaqlar, qadınlar, ahıllar, əlilliyi olan şəxslər) da olduğu dinc insanları hədəfə almaqdan çəkinməmişdir. Bu isə beynəlxalq humanitar hüququn, o cümlədən “Müharibə zamanı mülki əhalinin müdafiəsi haqqında” 1949-cu il tarixli IV Cenevrə Konvensiyasının və digər beynəlxalq hüquq normalarının kobud şəkildə pozulması deməkdir.

Ümumilikdə, 1988-1994-cü illəri əhatə edən Birinci Qarabağ müharibəsi torpaqlarımızın 20 faizinin işğal edilməsinə, bir milyondan artıq azərbaycanlının zorla öz

ata-baba yurdlarından qovularaq qaçqın və məcburi köçkün vəziyyətinə düşməsinə, 20 mindən çox vətəndaşımızın həlak olmasına, 50 min nəfərdən artıq şəxsin müharibə ilə əlaqədar əlilliklə nəticələnmiş ağır xəsarətlər almasına, 4 minə yaxın insanın isə əsir və girov götürülməsinə, itkin düşməsinə səbəb olmuşdur.

1988-1993-cü illərdə Qarabağda ümumilikdə 900 yaşayış məntəqəsi, 150 min ev, 7 min ictimai bina, 693 məktəb, 855 uşaq bağçası, 695 tibb müəssisəsi, 927 kitabxana, 44 məbəd, 9 məscid, 473 tarixi abidə, saray və muzeylər, 40 min muzey eksponatı, 6 min sənaye və kənd təsərrüfatı müəssisəsi, 160 körpü və digər infrastruktur obyektləri dağıdılmışdır.[3]

Beləliklə, əzəli Azərbaycan torpağı olan Qarabağ və ətraf ərazilərdə yaşayan mülki əhalinin əsas insan hüquq və azadlıqları, xüsusən də yaşamaq, təhlükəsiz yaşamaq, sağlamlığın qorunması, mülkiyyət, sərbəst hərəkət etmək və digər bu kimi hüquqları, o cümlədən üçüncü nəsil insan hüquqlarına aid edilən kollektiv hüquqları - dayanıqlı inkişaf, sülh və sağlam ətraf mühitdə yaşamaq hüquqları kütləvi şəkildə pozulmuşdur.

3https://www.justice.gov.az/categories/22

## 2. MÜHARİBƏ NƏTİCƏSİNDƏ İTKİN DÜŞMÜŞ ŞƏXSLƏR

Son məlumata görə, Birinci Qarabağ müharibəsi nəticəsində ümumilikdə 3890 nəfər itkin düşmüşdür ki, onlardan 719 nəfəri mülki şəxs, 3171 nəfəri isə hərbçidir. İtkin düşmüş mülki şəxslərdən 20 nəfəri qız olmaqla, 71 nəfəri yetkinlik yaşına çatmamış şəxs, 154 nəfəri ahıl olmaqla, 267 nəfəri isə qadındır. Qeyd etmək lazımdır ki, itkin düşmüş 3890 şəxsdən 29-u uşaq, 98-i qadın, 112-si ahıl olmaqla, kəndlər və şəhərlər işğal olunarkən həmin ərazidə qalmış və öz evlərini tərk etməmiş 872 nəfər əsir-girov götürülmüşdür. Ermənistan Respublikası bu şəxslərin əsir-girov götürülməsi və saxlanması faktını inkar edir, halbuki əsirlikdən azad edilmiş hərbçilərin və hadisə şahidi olmuş mülki vətəndaşların ifadələri qeyd edilən faktları sübut edir.

Məlumdur ki, Ermənistan siyasi rəhbərliyi tərəfindən azərbaycanlılara qarşı aparılan nifrət siyasətinin ən bariz nümunəsi olan Xocalı soyqırımı nəticəsində 613 nəfər həlak olmuşdur. Onlardan 63 nəfəri uşaq, 106 nəfəri qadın, 70 nəfəri qoca olmuşdur. 8 ailə tamamilə məhv edilmiş, 25 uşaq hər iki, 130 uşaq valideynlərindən birini itirmişdir. Bundan başqa, aralarında 76 uşağın olduğu 487 nəfər yaralanmışdır.

Xocalı soyqırımı zamanı 196 nəfər Azərbaycan Respublikasının Əsir və İtkin Düşmüş, Girov Götürülmüş Vətəndaşlarla əlaqədar Dövlət Komissiyası tərəfindən itkin düşmüş şəxs kimi qeydiyyata alınmışdır. Onlardan 36 nəfəri uşaq, 65 nəfəri qadın, 34 nəfəri isə yaşlı şəxslər olmuşdur. İtkin düşmüş 196 nəfərdən 95 nəfərinin işğal zamanı əsir-girov götürülməsi və saxlanması faktı şahid ifadələrinə əsasən müəyyən edilmişdir. Xocalının işğalı zamanı ermənilər tərəfindən əsir-girov götürülmüş və sonradan müxtəlif vasitələrlə azad edilmiş 413 nəfərin (onlar arasında 136 nəfər uşaq, 201 nəfər qadın 60 nəfər qoca olmuşdur) hadisə ilə bağlı həm yazılı, həm də video ifadələri alınaraq Dövlət Komissiyasında arxivləşdirilmişdir.

1998 və 2001-ci illərdə BQXK tərəfindən təqdim edilmiş məktublarda 54 nəfər azərbaycanlının adı keçmiş və sağ olduğu təsdiqlənmişdir. Sözügedən məktublarda Ermənistan hərbçiləri tərəfindən əsir-girov götürülmüş 54 Azərbaycan vətəndaşına Ermənistan Respublikasında və Azərbaycan Respublikasının bu ölkə tərəfindən işğal edilmiş Qarabağ ərazisində saxlanıldıqlarıyerlərdə BQXK tərəfindən baş çəkilmiş və onlar bu qurumun rəsmi qeydiyyatına alınmışlar. Lakin sağ olduqları təsdiq edilmiş həmin 54 nəfər də daha sonradan Ermənistan hərbi-siyasi rəhbərliyi tərəfindən qətlə yetirilmişdir. Onlardan sadəcə17 nəfərinin nəşi qaytarılmış, 6-sı qadın olmaqla, 33 nəfərin saxlanma yerində öldüyü bildirilsə də, nəşləri qaytarılmamış, 4 nəfərin sonrakı taleyi barədə ümumiyyətlə məlumat verilməmişdir. Bu isə ciddi insan hüquqları pozuntusudur.

Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində, xüsusən Xocavənd, Kəlbəcər, Ağdam və Füzuli rayonlarında, eləcə də Şuşa şəhərinin ətrafında bir çox kütləvi və fərdi məzarların olması ilə bağlı məlumatlar vardır. Bugünədək Kəlbəcər rayonunun Başlıbel, Xocavənd rayonunun Edilli, Xocalı rayonunun Fərrux, Ağdam rayonunun Sarıcalı, Füzuli rayonunun Seyidəhmədli kəndlərində və adıçəkilən rayonların digər yaşayış məntəqələrində bu cür məzarlar aşkarlanmışdır.

Aşkar edilən kütləvi məzarlıqlar və insan qalıqları Birinci Qarabağ müharibəsi dövründə əsir və girov götürülmüş azərbaycanlıların amansız işgəncələrə məruz qoyulmaqla qətlə yetirildiyini, nəşlərinin kütləvi şəkildə basdırıldığını deməyə əsas verir.

Azərbaycan Respublikasının Əsir və İtkin Düşmüş, Girov Götürülmüş Vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının İşçi qrupunun topladığı şahid ifadələri və materiallar əsasında Xocavənd rayonunun Edilli kəndində aşkar edilən kütləvi məzarlıqda Ermənistan silahlı qüvvələri tərəfindən işğal dövründə girovluqda saxlanılarkən qətlə yetirilmiş 15-20 nəfər azərbaycanlı mülki şəxsin nəşinin 3 metr dərinlikdə basdırıldığı məlum olmuşdur. Eləcə də Edillidə tapılmış məzarlıqda basdırılmış Azərbaycan hərbi qulluqçularının əl və ayaqlarının məftil və ya kəndirlə bağlanması kimi faktlar aşkarlanmışdır.[4]





Bu istiqamətdə aparılmış növbəti tədbirlər zamanı Xocalı rayonu ərazisindəki Fərrux yüksəkliyində bir neçə insana aid naməlum meyit qalıqları aşkarlanıb. Fərrux kəndi yaxınlığında tapılmış qalıqların ekspertizası nəticəsində Ermənistan tərəfinin iddialarının əksinə olaraq, insanların heç bir qəbirüstü abidə və ya tanınma lövhəsi olmadan dəfn edildiyi və antropoloji təhlilə əsasən həmin insan qalıqlarının Azərbaycan türklərinə aid olduğu üzə çıxmışdır.[5]

Əsir və İtkin Düşmüş, Girov Götürülmüş Vətəndaşlarla əlaqədar Dövlət Komissiyasında 62 nəfər Azərbaycan hərbçisi Birinci Qarabağ müharibəsi zamanı 1992-1993-cü illərdə Fərrux yüksəkliyi uğrunda döyüşlərdə itkin düşmüş şəxs kimi qeydiyyata alınmışdır. Eyni zamanda, toplanmış məlumatlara əsasən, Fərrux yüksəkliyinin

4 https://www.ombudsman.az/az/view/news/3444/xocavendde-novbeti-kutlevi-mezarligin-ashkar-edilmesi-ile-bagli-ombudsmanin-reaksiyasi

5https://apa.az/az/hadise/komissiya-ferruxda-tapilmis-meyit-qaliqlarinin-azerbaycanlilara-aid-oldugu-subut-edilib-video-699220

yaxınlığında yerləşən, Xocalı rayonunun Pirlər kəndində 46, Ağdam rayonunun Əliağalı kəndində 11 nəfər Azərbaycan hərbçisi itkin düşmüşdür.[6]





Şuşada da bugünədək bir neçə kütləvi məzarlıq aşkarlanmışdır. Xüsusilə Şuşa həbsxanası ərazisində aşkarlanmış məzarlıqlarda insanlara işgəncə verilməsinin izləri aşkarlanmış, baş və bədənin ayrı basdırılması, qarın boşluğunda mismarların olması və s. kimi hallar məlum olmuşdur. İnsan qalıqlarının tapıldığı bu cür kütləvi dəfn yerlərindən sonuncusu isə çirkab quyusunda aşkarlanmışdır.[7]



6https://azertag.az/xeber/2072423

7 https://www.ombudsman.az/az/view/news/4133/shushada-novbeti-kutlevi-mezarligin-ashkarlanmasi-ile-bagli-ombudsmanin-reaksiyasi

Ümumilikdə, azad edilmiş ərazilərdə aşkar edilmiş kütləvi məzarlıqlardan 500-ə yaxın insan qalığı tapılmışdır. Bugünədək aparılmış eyniləşdirmələr nəticəsində 4000-ə yaxın itkin düşmüş hesab edilən şəxsdən 15 nəfərin şəxsiyyəti müəyyən edilmiş, onların qalıqları ailələrinə təhvil verilərək adətlərə uyğun şəkildə dəfn mərasimləri keçirilmişdir. Kütləvi məzarlıqlarda aşkar edilmiş qalıqlardan 4-ü mülki şəxslərə,qalanlar isə hərbi qulluqçulara aid olmuşdur.[8]

Aşkar olunmuş kütləvi məzarlıqlar və insan qalıqları Birinci Qarabağ müharibəsində ermənilərin törətdiyi cinayətlərin bariz nümunəsidir və Ermənistanın azərbaycanlılara qarşı apardığı soyqırımı siyasətini bir daha sübut edir.

Bununla bağlı təkzibedilməz faktlardan biri kimi 1993-cü ilin aprel ayında Kəlbəcər rayonunun işğalı zamanı Azərbaycanın aidiyyəti dövlət qurumlarının radio əks-kəşfiyyat xidməti tərəfindən əldə olunmuş materialı qeyd edə bilərik. Həmin vaxt Ermənistanın Vardenis rayonundakı qərargah radiostansiyası tərəfindən Kəlbəcər döyüş bölgəsindəki baş radiostansiya vasitəsilə bölgədəki bütün səyyar radiostansiyalara əsir və girov götürülmüş Azərbaycan vətəndaşlarını, o cümlədən qocaları, qadınları və uşaqları təcili məhv edib basdırmaq tələb olunurdu. Məqsəd isə törətdikləri cinayətlərin izlərini həmin vaxt döyüş bölgəsinə gələn beynəlxalq nümayəndə heyətindən gizlətmək olmuşdur.

Ermənistanın əsir-girovluğundan qurtulmuş insanların verdiyi ifadələr və jurnalist müsahibələri Birinci Qarabağ müharibəsi dövründə Ermənistan silahlı qüvvələri tərəfindən müxtəlif tərkibli cinayətlərin, o cümlədən müharibə cinayətlərinin törədildiyini təsdiq edir.

Azərbaycan Respublikasının Əsir və İtkin Düşmüş, Girov Götürülmüş Vətəndaşlarla əlaqədar Dövlət Komissiyası tərəfindən açıqlanmış sənədlərə istinadən qeyd etmək lazımdır ki, Azərbaycan ərazilərinin Ermənistan silahlı birləşmələri tərəfindən işğalı zamanı əsir və girov götürülmüş Azərbaycan vətəndaşlarına nəinki qeyri-insani münasibət göstərilmiş, onlar hətta bir sıra müxtəlif məqsədlər üçün istifadə olunmuşlar:

- Ermənistan cəmiyyətində nifrət hissinin artırılması məqsədi ilə mülki əhalinin ixtiyarına verilərək meydanlarda nümayişkaranə şəkildə alçaldılmış və təhqir edilmişlər;
- xüsusən zərərli istehsal sahələrində qul kimi istifadə olunmuşlar;
- “erməni soyqırımı”nın anım günlərində və döyüşlərdə həlak olmuş terrorçu-quldur dəstəsi üzvlərinin və Ermənistan əsgərlərinin məzarı üzərində qurban kəsilmişlər;
- işğal olunmuş yaşayış məntəqələrində tarixi abidələrin, qəbiristanlıqların, evlərin və inzibati binaların sökülməsində və talan olunmasında, başqa sözlə, vandalizm aktlarında istifadə edilmişlər;
- biri-birinə qarşı fiziki və qeyri-əxlaqi əməllər törətməyə təhrik edilmişlər və s.

Həmçinin erməni xüsusi xidmət orqanlarının əsir-girovların hədə-qorxu və şantaj vasitəsilə Azərbaycan Respublikasına qarşı terror-təxribat əməlləri törətməyə təhriki faktları da mövcuddur.

Bununla yanaşı, Azərbaycan Respublikasının məruz qaldığı təcavüz və nəticədə yaranan humanitar problemlərlə əlaqədar olaraq ilkin mərhələdə müharibə qurbanları ilə bağlı işin təşkilində yaranan çətinlikdən bəzi insanlar sui-istifadə etmişdir. Belə ki, onlarla Azərbaycan vətəndaşı, o cümlədən meyitlər böyük məbləğdə pulun ödənilməsi

---

8 https://report.az/daxili-siyaset/dovlet-komissiyasi-15-nefer-itkin-dusmus-sexsin-taleyine-aydinliq-getirilib/

müqabilində ermənilər tərəfindən geri qaytarılmış, bəzi hallarda isə ailələr aldadılaraq dələduzluğa məruz qalmışlar. Azərbaycan Respublikasının Əsir və İtkin Düşmüş, Girov Götürülmüş Vətəndaşlarla əlaqədar Dövlət Komissiyası tərəfindən verilən iki fakt aşağıda qeyd edilmişdir:

- 31 dekabr 1992-ci ildə Qazax rayonunun Ermənistanla sərhəd ərazisində itkin düşmüş İsayev Əsgər İsmayıl oğlunun axtarışı ilə məşğul olmuş qardaşı İsayev Cahangir İsmayıl oğlu və bacısının həyat yoldaşı Məmmədov Məmməd Qərib oğlu 7 noyabr 1993-cü il tarixində Ermənistanın Gürcüstanla sərhəd ərazisinə gedərək, orada ermənilərlə danışığa girmiş və sonda Əsgər İsayevlə görüşdürəcəkləri və onu azad edəcəkləri adı altında aldadılaraq Ermənistana aparılmışlar. Hazırda onların hər üçünün sonrakı taleyi qaranlıq qalmışdır.
- 1993-cü ilin fevral ayında Azərbaycan Respublikasının Ağdərə rayonu uğrunda gedən döyüşlərdə itkin düşmüş Azərbaycan Ordusunun əsgəri Quliyev Xaqanı Nurəddin oğlunun axtarışı ilə məşğul olmuş doğmaları öz təşəbbüsləri ilə Rusiyada yaşayan ermənilərlə əlaqə yaratmışlar. Onları Xaqani Quliyevin sağ olduğuna inandırmış ermənilər 25 min ABŞ dolları müqabilində onu azad edəcəklərini bildirmişlər. Yaxın qohumlarının köməkliyi ilə həmin vəsaiti toplamış Xaqani Quliyevin qardaşı Mahir Quliyev 1996-cı ilin yayında Rusiyaya getmişdir. Lakin ermənilər göstərilən məbləği gətirmiş Mahir Quliyevin özünü də orada qətlə yetirərək pulu götürmüş və qaçmışlar.

## 3. OMBUDSMANIN İTKİN DÜŞMÜŞ ŞƏXSLƏRLƏ BAĞLI FƏALİYYƏTİ

Məlum olduğu kimi, uzun illərdir ki, qonşu Ermənistanın ölkəmizə qarşı apardığı nifrət və etnik təmizləmə siyasəti Azərbaycan əhalisinin bir çox əsas insan hüquqlarının pozulmasına səbəb olmuşdur. Bu baxımdan, Ombudsmanın fəaliyyətində Ermənistan tərəfindən müxtəlif beynəlxalq hüquq normaları və insan hüquqlarının pozulması ilə bağlı faktların, o cümlədən müharibə nəticəsində itkin düşmüş azərbaycanlıların taleyi ilə bağlı məsələnin araşdırılmasına və dünya ictimaiyyətinə çatdırılmasına xüsusi diqqət ayrılır.

Azərbaycan Ombudsmanı xarici ombudsman və milli insan hüquqları təsisatları, habelə beynəlxalq təşkilatlarla əməkdaşlıq əlaqələri çərçivəsində itkin düşmüş soydaşlarımızla bağlı məsələni dəfələrlə qaldırmış, Ermənistanın məlumat vermə öhdəliyini yerinə yetirməsi üçün çağırışlar edilməsinin zəruriliyini vurğulamışdır.

Bununla bağlı fəaliyyət həm İkinci Qarabağ müharibəsinə qədər, həm də postmüharibə dövründə həyata keçirilmişdir. Belə ki, Ombudsmanın beynəlxalq əməkdaşlıq əlaqələri çərçivəsində baş tutmuş səfərləri zamanı, BQXK nümayəndələri ilə keçirilən görüşlərdə[9] və onlara ünvanlanmış məktublarda minlərlə vətəndaşımızın əsir və itkin düşməsi, girov götürülməsi faktı, atəşkəs dövründə həlak olmuş hərbi qulluqçularımızın nəşinin verilməsi[10] ilə bağlı çağırışlar edilmişdir.

Yuxarıda da qeyd olunduğu kimi, bu mövzunun aktuallığı Vətən müharibəsindən sonra daha da artmışdır  və hazırda itkinlərin taleyinə aydınlıq gətirilməsi istiqamətində əməli addımlar atılması məqsədilə işlər görülməkdədir.

2021-ci ildə 30 Avqust - Beynəlxalq İtkin Düşmüş Şəxslər Günü ərəfəsində Ombudsman Səbinə Əliyeva bu mövzunun aktuallığını diqqətə çatdırmaq məqsədilə videomüraciət yayımlamışdır. Ombudsman həmin tarixlə əlaqədar yayımlanmış geniş videomüraciətində [11] Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində itkin düşmüş çoxsaylı soydaşlarımız və onların ailələrinin narahatlığı barədə söz açmışdır.




Ombudsman dünya ictimaiyyətinə müraciətində əsir və itkin düşmüş, girov götürülmüş soydaşlarımızın taleyi barədə düzgün məlumatların verilməsinə, hələ də sağ qalanların qaytarılmasına, həlak olanların cəsədlərinin qalıqlarının verilməsinə yardımçı olmağa çağırış etmişdir.

Ombudsman həmin tarixlə əlaqədar ADA Universitetində itkin düşmüş şəxslərə həsr olunmuş beynəlxalq konfransda çıxış etmiş, beynəlxalq hüquq normalarının təmininə birgə nail olunması və insan hüquqları pozuntularının qarşısının alınması ilə bağlı çağırışlarını səsləndirmişdir.

---

9 https://azertag.az/xeber/OMBUDSMAN_CENEVRADA_BQXK_NIN_NUMAYANDASI_ILA_GORUSMUSDUR-473177

10 https://apa.az/az/xeber/daxili-siyaset/-192420

11 https://www.youtube.com/watch?v=jow7U-E--84




Həmin gün ərəfəsində AZTV-də əsir və itkin düşənlərin acı taleyinə həsr olunmuş “Obyektiv” verilişində Ombudsman bu tarixin 2011-ci ildən etibarən BMT tərəfindən qeyd edildiyini və bizim ölkə üçün aktual gün olduğunu qeyd edərək, Birinci Qarabağ müharibəsi dövründə itkin düşmüş soydaşlarımızın taleyinin arxasında böyük insan və ailə faciələrinin, nəslin, ocağın iztirabının olduğunu vurğulamışdır.[12]

Ombudsman 4 may 2021-ci il tarixində yayımlanmış “Azərbaycanlılara qarşı nifrət cinayətləri və nifrət nitqinə dair hesabat”ın ikinci hissəsində[13], 21 sentyabr - Beynəlxalq Sülh Günü ilə bağlı müraciətində də itkin düşmüş şəxslərin taleyi barədə obyektiv məlumatı təqdim etməyə çağırmışdır.[14] Bundan başqa, Ombudsman 1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü ilə əlaqədar bəyanatında təcavüzkar erməni millətçilərinin Azərbaycan xalqına qarşı apardığı etnik təmizləmə və soyqırımı siyasətinin qurbanları, habelə itkin düşmüş soydaşlarımız arasında uşaqların da olduğunu vurğulamışdır.[15]




Bütün bu məlumatlar elektron və çap mediasında, televiziyada geniş şəkildə işıqlandırılmışdır. Yerli media ilə yanaşı, xarici mətbuatda da Ombudsmanın itkinlərin taleyi ilə bağlı toxunduğu məqamlara diqqət yetirilmişdir. Ombudsmanın İtaliya Senatında Azərbaycanla bağlı səsləndirdiyi həqiqətlər İtaliya və Türkiyə mətbuatında geniş yayımlanmışdır. [16]

Azərbaycan Ombudsmanı İtaliyanın “L'Opinione” qəzetinə müsahibəsində Ermənistanın ölkəmizə qarşı törətdiyi müharibə cinayətləri ilə bərabər, itkin düşmüş soydaşlarımızın taleyi barədə də məlumat vermişdir.[17]

Xocalı soyqırımının 30-cu ildönümü ilə bağlı Ombudsmanın təşəbbüsü əsasında hazırlanmış "Xocalı şahidi" adlı filmdə 1992-ci il fevralın 25-dən 26-sına keçən gecə

---

12 https://www.youtube.com/watch?v=tp69OQCMcfk

13 https://ombudsman.az/upload/editor/files/Az%C9%99rbaycanl%C4%B1lara%20qar%C5%9F%C4%B1%20nifr%C9%99t%20cinay%C9%99tl%C9%99ri%20v%C9%99%20nifr%C9%99t%20nitqin%C9%99%20dair%20HESABAT%20(2-ci%20hiss%C9%99).pdf

14 https://ombudsman.az/az/view/news/2697/azerbaycan-respublikasinin-insan-huquqlari-uzre-muvekkilinin-ombudsmanin-21-sentyabr-beynelxalq-sulh-gunu-ile-bagli-muracieti

15 https://www.ombudsman.az/az/view/news/1842/azerbaycan-respublikasinin-insan-huquqlari-uzre-muvekkilinin-ombudsman-1-iyun-ushaqlarin-beynelxalq-mudafiesi-gunu-ile-elaqedar-beyanati

16 https://az.trend.az/azerbaijan/gundem/3521979.html

17 http://opinione.it/esteri/2021/12/03/domenico-letizia_italia-ombudsman-azerbaigian-sabina-aliyeva-commissario-ai-diritti-umani-repubblica-dell-azerbaigian-roma/

törədilmiş soyqırımı zamanı və girovluqda mülki əhalinin məruz qaldığı işgəncələr, onların itkin düşmüş yaxınları barədə məlumatlar faktlar əsasında təqdim olunmuşdur.[18]

Öncəki bölmələrdə qeyd edilən işğaldan azad edilmiş ərazilərimizdə kütləvi məzarlıqların aşkar edilməsi ilə bağlı məlumatlara da Ombudsman Aparatı tərəfindən münasibət bildirilmişdir.

Ombudsman Səbinə Əliyeva xarici ölkələrə səfərləri zamanı keçirdiyi görüşlərdə, iştirak etdiyi tədbirlərdə də itkin düşmüş azərbaycanlıların taleyinə münasibətdə biganəliklə bağlı narahatlığını diqqətə çatdırmışdır.

Ombudsman Türkiyə İnsan Hüquqları və Bərabərlik Qurumunun Azərbaycanla bağlı hesabatının təqdimatında, Bolqarıstanda keçirdiyi rəsmi görüşlərdə, habelə iştirak etdiyi digər tədbirlərdə bu məsələni qaldırmışdır.






Beynəlxalq tədbirlər sırasında ATƏT-in Təhlükəsizlik üzrə Əməkdaşlıq Forumunda çıxış edərkən də Azərbaycan Ombudsmanı Birinci Qarabağ müharibəsi dövründən itkin düşmüş hesab edilən şəxslər barədə iştirakçılara məlumat vermiş, qarşı tərəfin itkin düşmüş 3890 azərbaycanlı barədə bu günədək məlumat vermədiyini vurğulaymışdır.



Ombudsman Mərakeşdə İƏT Ombudsmanlar Assosiasiyasının iclasında çıxışı zamanı Ermənistan tərəfindən törədilmiş insan hüquq pozuntuları ilə bağlı çoxsaylı hesabatlar hazırlandığı, çağırışlar edildiyini bildirmişdir. Azərbaycan Ombudsmanı Mərakeşə səfəri çərçivəsində həm də ölkə Krallığının bir sıra rəsmiləri ilə görüşlər keçirmişdir. Görüşlərdə Ermənistanın işğalı altında olduğu dövrdə Azərbaycan ərazilərinin minalarla çirkləndirilməsi faktı ilə yanaşı, müharibə nəticəsində itkin düşmüş dörd minə yaxın azərbaycanlının 30 ilə yaxındır naməlum qalan taleyi ilə bağlı məlumat verilib və bu yanaşmanın qətiyyətlə pislənməli olduğu bildirilib.

18https://www.youtube.com/watch?v=FxLNjDf33fM

Şuşa, Ağdam Tərtərdə faktaraşdırıcı missiya həyata keçirmiş İƏT Ombudsmanlar Assosiasiyasının prezidenti Şərəf Malkoçun rəhbərlik etdiyi nümayəndə heyəti tərəfindən əldə edilmiş nəticələrə əsasən hazırlanmış hesabatın Ankarada keçirilmiş təqdimat mərasimi zamanı S.Əliyeva mətbuata açıqlamalarında itkin düşmüş azərbaycanlılar barədə Ermənistanın məlumat verməməsi məsələsini vurğulamışdır.[19]



2022-ci ildə Strasburqa səfər çərçivəsində Ombudsman Avropa Şurasının baş katibi[20], Avropa İnsan Hüquqları Məhkəməsinin sədri[21] ilə görüşü zamanı da bu mövzunu gündəmə gətirmiş, aidiyyəti tədbirlərin görülməsinə çağırış etmişdir.






Ombudsman Səbinə Əliyeva hərbi münaqişələr və digər hallarla bağlı itkin düşən şəxslərlə bağlı məsələlərin həlli ilə bağlı fəaliyyət göstərən İtkin Düşmüş Şəxslər üzrə Beynəlxalq Komissiyasının nümayəndə heyəti ilə görüş keçirmişdir. Görüşdə Ombudsman 4000-ə yaxın itkin düşmüş soydaşımız barədə danışarkən onların taleyinin

19 https://www.ombudsman.az/az/view/news/3155/iet-ombudsmanlar-assosiasiyasinin-azerbaycanla-bagli-hesabatinin-teqdimati-kechirilib

20 https://www.ombudsman.az/az/view/news/3417/ombudsman-avropa-shurasinin-bash-katibi-ile-gorushub

21 https://www.ombudsman.az/az/view/news/3429/ombudsman-avropa-insan-huquqlari-mehkemesinin-sedri-ile-gorushub

məlum olmadığını, Ermənistanın insan hüquqları və beynəlxalq hüquq normalarını pozmasına görə məsuliyyət daşıdığını qeyd edib. [22]



Bütün bunlarla yanaşı, Ombudsmanın faktaraşdırıcı missiya fəaliyyəti çərçivəsində Ombudsman Aparatının əməkdaşları Edillidə aşkar edilmiş kütləvi məzarlığa baxış keçirmiş və nəticələr əsasında geniş hesabat hazırlanaraq beynəlxalq ictimaiyyətə təqdim edilmişdir. Həmin hesabatda Birinci Qarabağ müharibəsi nəticəsində itkin düşmüş şəxslərin taleyi ilə bağlı mövcud vəziyyətə bir bölmə həsr edilmişdir.[23]

Ombudsman tərəfindən aidiyyəti dövlət qurumları, beynəlxalq qurumlar, qeyri-hökumət təşkilatları ilə əməkdaşlıqda bu mövzu ilə əlaqədar tədbirlər keçirilmiş, müzakirələr aparılmışdır.[24]

Eyni zamanda, Ombudsmanın davamlı olaraq beynəlxalq təşkilatlara ünvanladığı bəyanat, müraciətlərdə itkin düşmüş şəxslərin taleyinə aydınlıq gətirilməsi üçün çağırışlar edilir.

Azad edilmiş ərazilərdə kütləvi məzarlıqlar aşkarlandıqdan sonra itkin düşmüş azərbaycanlılardan şəxsiyyəti müəyyən olunanlarla bağlı Ombudsmanın sosial şəbəkə səhifələrində məlumatlar mütəmadi olaraq paylaşılmış, bu faktların müharibə cinayətləri olmaqla bərabər, beynəlxalq humanitar hüquq qaydalarının ciddi pozuntusu olduğu qeyd olunmuşdur.

22 https://www.ombudsman.az/az/view/news/3966/ombudsman-itkin-dushmush-shexsler-uzre-beynelxalq-komissiyanin-numayende-heyeti-ile-gorushub

23 https://www.ombudsman.az/az/view/news/3792/ombudsman-xocavend-rayonunun-edilli-kendinde-ashkar-olunmush-kutlevi-mezarliqlarda-aparilmish-musteqil-yerinde-arashdirmanin-neticelerine-dair-hesabat-hazirlayib

24 https://www.ombudsman.az/az/view/news/3435/ombudsman-aparatinin-emekdashlari-itkin-dushmush-soydashlarimizin-anim-merasiminde-ishtirak-edibler

## 4. İTKİN DÜŞMÜŞ ŞƏXSLƏRİN YAXINLARI VƏ ERMƏNİSTAN TƏRƏFİNDƏN GİROVLUQDA SAXLANMIŞ ŞƏXSLƏR İLƏ KEÇİRİLƏN GÖRÜŞLƏR

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva və Aparatın əməkdaşları tərəfindən Birinci Qarabağ müharibəsi zamanı itkin düşmüş şəxslərin ailə üzvləri və digər yaxınları, eyni zamanda erməni girovluğunda saxlanılmış şəxslərlə bir neçə dəfə görüşlər keçirilmişdir. Bu hesabatda da həmin görüşlər zamanı verilən ifadələrdən istifadə olunmuşdur.





İtkin düşmüş şəxslərin ailə üzvləri Ombudsmanla görüşləri zamanı yaxınlarının qaytarılmasında və ya onların taleyi haqqında hər hansı məlumatın əldə olunmasında köməklik göstərilməsini xahiş etmişlər.

Hesabatın bu bölməsində işğal zamanı itkin düşmüş şəxslərlə bağlı ailə üzvləri və yaxınları tərəfindən verilən məlumatlar, habelə həmin şəxslərin fotoşəkilləri, eyni zamanda həmin dövrdə girovluqda saxlanılmış şəxslərin başlarına gələn faciələr, şahidi olduqları hadisələr yer almışdır.

- **Birinci Qarabağ müharibəsi dövründə Xocalı rayonundan itkin düşmüş, 1967-ci il təvəllüdlü Azad Pirqulu oğlu Cabbarovun həyat yoldaşı Fəridə Cəlil qızı Cabbarova ilə görüş keçirilmişdir:**



Fəridə Cabbarova 9 mart 1971-ci tarixində Laçın rayonu, Arduşlu kəndində doğulub. Ailə həyatı qurduqdan sonra həyat yoldaşı Azad Cabbarovla birgə 1991-ci il avqust ayında Xocalıda kirayə ev götürüb ora köçüblər. F.Cabbarova söyləyir ki, Azadla birgə nikahlarından 2 övladı olmuşdur: 1 may 1990-cı il təvəllüdlü Fuad Cabbarov və 1 iyun 1991-ci il təvəllüdlü Nicat Cabbarlı.

Müharibənin gətirdiyi dəhşətli günləri xatırlayan F.Cabbarova xatirələrini kədərli şəkildə davam etdirir:

"*Bizim atamız-babamız daim Qarabağda yaşayıblar, biz bu torpağın suyu çörəyi ilə böyümüşük. Buradakı dağlar, dərələr hamısı bizə doğmadır, biz dağların qoynunda böyümüşük. Təəssüf ki, bizim qonşumuz, bizim torpağımızda bizimlə eyni çörəyi yeyən ermənilər, yedikləri çörəyə xəyanət etdilər. Biz nə bilərdik ki, bunlar bizim vətənimizə, təbiətimizə göz dikiblər".*

Fəridə Cabbarova qeyd edir ki, həyat yoldaşı Azad çox vətənpərvər, torpağına bağlı bir insan olub və Ermənistan silahlı qüvvələrinin hücumlarının başladığı ərəfədə könüllü olaraq ordu sıralarına qoşulub. O, həmin ərəfələrdə Xocalıda vəziyyətin olduqca ağır olduğunu xatırlayır. Həyat yoldaşı artıq ordu sıralarında olduğundan körpə uşaqlarının qayğısına qalmaqda çətinlik çəkdiyini deyən Fəridə Cabbarova bu səbəbdən 1992-ci ilin fevral ayında atasıgilin yaşadığı evə, Laçın rayonu Arduşlu kəndinə getdiyini bildirir.

O, faciə günü barədə bunları deyir:

"*Həmin dəhşətli gün, fevral ayının 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri Rusiyanın 366-cı motoatıcı alayının iştirakı ilə Xocalı şəhərini tamamilə məhv etdi, yaşlı, cavan, qadın, uşaq demədən yüzlərlə Xocalı sakini xüsusi vəhşiliklə öldürüldü, mindən çox adam əsir və girov götürüldü. Həmin şəxslərdən biri də mənim həyat yoldaşım oldu*".

Fəridə Cabbarova həmin dəhşətli gündən bu günədək Azad haqqında məlumat ala bilmədiyini böyük həsrətlə söyləyərək, əlavə edir: "*Övladlarım və mən daim onun axtarışında olmuşuq və ömrümüzün sonuna kimi onu axtaracağıq".*

- ***Ombudsmanın görüş keçirdiyi növbəti şəxs Xocalı soyqırımının canlı şahidi, faciə zamanı həyat yoldaşı həlak olmuş, özü isə əsir götürülərək işgəncələrə məruz qalmış Valeh Hüseynov olmuşdur:***



Valeh Hüseynov 1968-ci ildə Xocalı şəhərində anadan olmuşdur. Faciə vaxtı 23 yaşı olan Valeh axşam saatlarında üzü meşəliyə tərəf qaçan zaman onunla birlikdə gedən həyat yoldaşı Səadətin aldığı güllə yarasından vəfat etdiyini bildirmişdir.

Elə həmin gecə meşə ətrafında erməni hərbçiləri tərəfindən blokadaya alınaraq girov götürülən Valeh Hüseynov vurğulayıb ki, 27 gün Ermənistan girovluğunda saxlanılan zaman əsir və girov düşmüş insanlarla amansız rəftar edildiyinin şahidi olub.

Girovluqda saxlanılan vətəndaşımızın ifadəsində qeyd olunan dəhşətli məqamlardan biri də Valehin musiqi ifaçısı olduğunu öyrənən erməni hərbçilərinin onun əllərini sındırması, daha sonra qaz sobasında yandırması olmuşdur. Həmin günlər ərzində davamlı olaraq döyülərək işgəncələrə məruz qaldığını söyləyən Valeh Hüseynov o günləri bu sözlərlə təsvir edib: *"Bu ağrı-acılı 27 gün sanki 27 ilə bərabər idi".*

- ***İtkin düşmüş Şirindil Cavad oğlu Həsənquliyevin bacısı Nazlı Cavad qızı Həsənquliyeva ilə görüş keçirilmişdir:***



Nazlı Həsənquliyeva görüşdə illərdir ki, itkin düşmüş qardaşı, 18 sentyabr 1968-ci il təvəllüdlü Şirindil Cavad oğlu Həsənquliyevi axtardığını bildirib. O, qeyd edib ki, universitetdə 4-cü kurs tələbəsi olan qardaşı Şirindil Həsənquliyev təhsilini yarımçıq qoyaraq könüllü olaraq ordu sıralarına qoşulmuş, 1991-ci il oktyabr ayında Malıbəyli, Kosalar, Kərkicahan kəndlərinin müdafiəsində iştirak etmişdir. O, 1992-ci ilin yanvarında icazə alaraq bir həftəlik Mehdiabad qəsəbəsinə ailəsinin yanına geri dönmüş, 1992-ci ilin yanvar ayının 23-də isə yenidən cəbhəyə yola düşmüşdür. Ailə yanvar ayının 26-na kimi Şirindil Həsənquliyevin Daşaltı əməliyyatında iştirak etdiyi barədə məlumatlar almış, lakin həmin tarixdən sonra onun barəsində məlumat ala bilməmişdir.





Nazlı Həsənquliyeva itkin düşmüş qardaşını anası ilə birlikdə illərlə axtarmış, lakin təəssüf ki, bu günədək xəbər ala bilməmişdir. Oğul dərdi ilə yaşayan, hər gün övladı barəsində bir xəbər alacağını gözləyən ana 2016-cı ildə vəfat etmişdir.

Hazırda Nazlı Həsənquliyeva bu ailənin yeganə üzvü kimi tək yaşayır. O, ümidini itirmədiyini, həyatının sonuna kimi itkin düşmüş qardaşını axtaracağını söyləyib.



- **İtkin düşmüş Vahid Şahvələd oğlu Məmmədovun həyat yoldaşı, Ağası Rauf oğlu Hüseynovun isə bacısı olan Mətanət Məmmədova ilə görüş keçirilmişdir:**



Mətanət Məmmədova bildirir ki, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü ilə başlayan müharibə zamanı böyük ailə faciəsi yaşayıb. Azərbaycan Respublikasının hərbi qulluqçusu kimi öz xidməti vəzifəsini yerinə yetirən həyat yoldaşı mayor Vahid Məmmədov 1991-ci ilin noyabr ayından 1992-ci ilin may ayına kimi Şuşa istiqamətində torpaqlarımızın müdafiəsində fəal iştirak etmişdir.Həmin müddət ərzində o, həyat yoldaşı ilə mütəmadi olmasa da, bəzən əlaqə saxlayıb danışa bilmişdir.




O bildirir ki, sonuncu dəfə həyat yoldaşı ilə 1992-ci ilin 3 may tarixində telefonla danışıb və həmin müddətdən sonra onunla heç bir əlaqə saxlaya bilməyib. Mətanət Məmmədova müharibənin gətirdiyi çətin və əzablı günlərdə himayəsində qalmış iki azyaşlı övladı ilə birgə həyat yoldaşı Vahid Məmmədovu axtarsa da, bu axtarışlar nəticə verməmişdir.

Birinci Qarabağ müharibəsində Mətanət Məmmədovanın qardaşı Ağası Rauf oğlu Hüseynov da itkin düşmüşdür. O, qeyd edib ki, müharibə başlayan zaman Tibb Universitetinin 5-ci kurs tələbəsi olmuş qardaşı gənc yaşında bütün çətinlikləri nəzərə

alaraq müharibədən əziyyət çəkən mülki əhaliyə və hərbi qulluqçulara tibb xidməti göstərmək üçün könüllü olaraq döyüş bölgəsinə getmişdir. Ağası Hüseynov son dəfə 1992-ci il may ayının 7-də anası Svetlana Hüseynova ilə Şuşa şəhərindən telefon əlaqəsi saxlamışdır.





ҺАРДАСЫНЫЗ, А

Редаксијаја кәлән Мәтанәт Мәммәдова бу ики шәкли бизә вериб деди:

— Ағасы гардашымдыр, Ваһид исә һәјат јолдашым. Һәр икиси Шушада иткин дүшүб. Бәлкә сиз көмәк едәсиниз, бәлкә онлардан бир сораг верән олду. Ағасы Рауф оғлу Һүсејнов 1968-чи илдә анадан олуб. АТУ-нун бешинчи курс тәләбәси иди. Һәрби госпиталда тибб гардашы ишләјирди. Хочалы һадисәсиндән сонра госпитала чохлу шикәст, јаралы кәтирилди. Бу она чох пис тә'сир етди ки, әкәр орада һәким олсајды өләнләрин, шикәст оланларын да сајы аз оларды. Одур ки, апрелин әввәлиндә көнүллү олараг Шушаја, Елчин Мәммәдовун командир олдуғу 777-чи баталјона кетди. Апрелин ахырында 3 күнлүк евә кәлди. Сессијасы мајын 10-дан сонра башлајырды. Кедәркән

Sonuncu dəfə onları görən əsgər yoldaşlarının sözlərinə görə, Şuşa istiqamətində ön xəttdə mövqe tutan əsgərlərimiz ratsiya vasitəsilə kömək istədiyi zaman Vahid dərhal hazırlaşıb yola düşərkən Ağası da onunla getmək istəmiş, lakin Vahid buna etiraz etmişdir. Daha sonra yoldaşları Vahidin “BTR” markalı maşına minməsinin şahidi olublar.

Mətanət Məmmədova daha sonrakı hadisələr, həm həyat yoldaşı, həm də qardaşının taleyi barədə hələ də tam və dolğun məlumat ala bilməmişdir.

• ***Ombudsmanın nümayəndələri böyük ailə faciəsi yaşamış, atası (İzzət Qoca oğlu Məcnunov), anası (Gülüm Kərəm qızı Kazımova) və bacıları (Gülafə İzzət qızı Məcnunova və Səkinə İzzətqızı Məcnunova) bugünədək itkin hesab olunan Ələkbər İzzət oğlu Məcnunovla görüş keçirmişdir:***



Müharibənin dəhşətləri ilə qarşılaşdığı vaxt 12 yaşında olan Ələkbər Məcnunov atası, anası, qardaşı və iki bacısı ilə birlikdə Qubadlı rayonu, Çaytumas kəndində yaşamışdır. Ələkbər Məcnunov həmin vaxt hər gün atışma səsləri eşidildiyini xatırlayır. Artıq kəndlərində yaşamaq mümkün olmadığından ailə üzvləri ev əşyalarını "Kamaz" markalı maşına toplayaraq, kəndi tərk etməyə hazırlaşıblar. 1993-cü ilin avqust ayının 30-da ermənilər evi atəşə tutmağa başlayıb. Ələkbər Məcnunov həmin günlə bağlı xatirələrini belə davam etdirir:

*"Atam mən və qardaşıma dedi ki, siz bağa keçin, biz də gəlirik. Biz erməni silahlılarını artıq evimizin 300 metrliyində görürdük. Onlar durmadan bizə doğru atəş açırdılar. Mən və qardaşım dərhal atamın dediyi kimi, bağa doğru hərəkət etməyə başladıq. Dərə kimi olan bir ərazi vardı, orda biz ailə üzvlərimizi gözləmək üçün dayandıq. Amma erməni əsgərlərindən biri bizi sezdi və dərhal həmin istiqamətə "RPG" silahı ilə atəş açdı. Yaxınlığımızda ev atəş nəticəsində yanmağa başladı. O istiqamətdə arx kimi yer var idi, biz də ora tullandıq. Məcbur qalıb həmin ərazidən uzaqlaşdıq. Həkəri çayının Qubadlı rayonu ərazisinə düşən istiqamətində hərəkət etdik".*

Onlar yolda əmisigilin ailəsi ilə rastlaşdıqda iki əmisi oğlunun (Məcnunov Əli, Məcnunov Cəmil) da ağır yaralanmış vəziyyətdə olduğunu görüblər. Həmsöhbətimiz və qardaşı ailələrinin yanına geri dönmək istəsələr də, əmisinin ailəsi onları atasıgilin geri qayıdacağına inandırmağa çalışıb. Beləcə, gecə saatlarını gözləyərək, kəndi tərk ediblər.

Ermənistan silahlı qüvvələrinin Azərbaycan torpaqlarını işğal etməsi nəticəsində məcburi köçkün kimi öz ata-baba yurdundan didərgin düşdüyünü ürək ağrısı ilə bildirən Ələkbər Məcnunov o gündən ailənin heç bir üzvü barədə məlumat ala bilməyib. O, uşaq ikən ata və ana qayğısından məhrum olması yanaşı, bacılarının da itkin düşməsini kədərlə xatırladıb.

Qubadlı rayonu, Çaytumas kəndinin işğalı nəticəsində vətəndaşımızın yuxarıda adları çəkilən dörd ailə üzvü Ermənistan silahlı qüvvələri tərəfindən girov götürülmüşdür. Ələkbər Məcnunov isə məcburi köçkün kimi əmisinin ailəsi ilə birlikdə yaşamışdır.

Aradan keçən uzun illər ərzində o, Əsir və İtkin Düşmüş, Girov Götürülmüş Vətəndaşlarla əlaqədar Dövlət Komissiyasında toplanmış məlumatlara, o cümlədən şahid ifadələrinə əsasən ailəsi barəsində yalnız anası Gülüm Kazımova və bacısı Səkinə Məcnunovanın işğal edilmiş Xankəndi şəhərində uşaq bağçasında birlikdə işlədildiyi barədə xəbər ala bilib. Onların sonrakı taleyi barədə heç bir məlumat əldə edə bilməyən Ələkbər Məcnunov 1993-cu ildən hazırkı vaxtadək mənəvi əzəb çəkdiyini bildirir.


İzzət Məcnunov


Gülüm Kazımova


Gülafə Məcnunova

- ***Növbəti görüş müharibə nəticəsində ən çox zərər çəkmiş vətəndaşlarımızdan biri - Xocalı soyqırımı zamanı girov götürülərək işgəncələrə məruz qalmış Arif Nayib oğlu Əhmədov ilə keçirilmişdir. Faciə nəticəsində onun dörd qohumu öldürülüb, itkin düşmüş altı yaxınından isə bugünədək xəbər ala bilmir:***



Xocalı şəhər sakini Arif Əhmədov 1992-ci il fevral ayının 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri tərəfindən 366-cı motoatıcı alayın birbaşa iştirakı və dəstəyi ilə dinc əhaliyə qarşı törədilmiş Xocalı soyqırımının canlı şahididir. O söyləyir ki, əvvəlcə, Xocalı dörd tərəfdən erməni qoşunları tərəfindən mühasirəyə alınmış, sonra isə artilleriya və ağır hərbi texnikadan atəşə tutulmuş, qısa zamanda şəhər tamamilə alova bürünmüşdür. O bildirir ki, silahlı ermənilər şəhərin hər bir yerində dinc əhalini güllələyir, meyitlərə qarşı vəhşilik etməkdən belə çəkinmirdilər. Arif Əhmədov erməni silahlılarından yayınıb meşələrə, dağlara qaçmağa çalışan əliyalın insanların çoxunun soyuqdan, şaxtadan məhv olduğunu və qaçmağa çalışarkən ailə üzvləri ilə birgə Ermənistan silahlı qüvvələrinin əsgərləri tərəfindən əsir götürüldüyünü qeyd edib.

Arif Əhmədov böyük ağrılarla o günləri xatırlayaraq bildirir ki, ermənilər tərəfindən oğlanları Tural Əhmədov, Xəyal Əhmədov, həyat yoldaşı Dünya Ələsgərova və həmin vaxt 4 yaşı olan qızı Arifə Əhmədova ilin qış fəslində digər Xocalı sakinləri ilə birgə heç bir şəraiti olmayan soyuq daxmalarda əsirlikdə saxlanılıb. Onun ailə üzvləri üç gün sonra qaytarılsa da, özü bir ay on üç gün Ağbulaqda əsirlikdə qalıb. Bu müddətdə digər əsir və girovlara qarşı olduğu kimi ona də dəhşətli işgəncələr verilib. Erməni əsgərlərindən biri ağzındakı qızıl dişlərini kəlbətinlə çıxarıb. Hər gün dəmir dəyənəklə döyüldüyünü, yemək və su içmək kimi təminatlarının belə olmadığını söyləyən hadisə şahidi yalnız uzun yalvarışlardan sonra gün ərzində cəmi bir və ya iki dəfə az miqdarda su içə bildiyini xatırlayır. O, bildirib ki, əsirlikdəki cavanlara iynə ilə dizel yanacağı vuraraq, onların sağlamlığına bərpaedilməz xəsarətlər yetirilib.

Arif Əhmədov daha sonra əlavə edir:

“*Gözlərimin qarşısında ermənilər 14 nəfər mülki sakinimizi başından güllələyərək silos quyusuna atdılar. Həmin 14 nəfərin içində mənim qardaşım oğlu Əbülfət Əliyev və qardaşım nəvəsi Rüfət Əliyev də var idi*”.

Onun girov götürülmüş digər ailə üzvləri - 72 yaşlı anası Durna Əhmədova, qardaşları Eldar Əhmədov, Rəfil Əhmədov, Ağali Əliyev və qardaşlarının həyat yoldaşları Sürayə Əliyeva və Sürayə Əhmədova hələ də itkin düşmüş hesab olunurlar və onlar barəsində bu günə kimi heç bir məlumat ala bilməmişdir.



*Rəfil Əhmədov*




*Eldar Əhmədov*

Arif Əhmədov fikirlərini belə yekunlaşdırır:

“*Digər qohumlarımdan isə qardaşım İslam Əhmədov, Yelmar Əhmədov, qardaşımın oğlu Əbülfət Əliyev və qardaşım nəvəsi Rüfət Əliyev ermənilərin silahlı hücumları nəticəsində həlak oldular*”.



*Yelmar Əhmədov*



*Əbülfət Əliyev*

# NƏTİCƏ

Hesabatdan göründüyü kimi, Ermənistanın 1988-ci ildən etibarən əsassız ərazi iddiaları irəli sürməklə Azərbaycana qarşı həyata keçirdiyi nifrət, etnik təmizləmə, soyqırımı və işğalçılıq siyasəti nəticəsində ölkəmizin ərazi bütövlüyünə qəsd edilmiş, dinc azərbaycanlı əhali çoxsaylı cinayət aktlarının, xüsusilə də sülh və insanlıq əleyhinə, habelə müharibə cinayətlərinin qurbanına çevrilmişdir.

Ermənistanın beynəlxalq humanitar hüquq normalarını, o cümlədən "Müharibə qurbanlarının müdafiəsi haqqında" 1949-cu il tarixli Cenevrə konvensiyalarının və onlara dair 1977-ci il tarixli I Əlavə Protokolun tələblərini kobud şəkildə pozaraq, əsir-girov götürülmüş hərbi qulluqçuları və mülki şəxsləri zorla yoxa çıxarması ilə bağlı cinayət əməlləri də məhz bu qəbildəndir.

Birinci Qarabağ müharibəsi dövründə itkin düşmüş çoxsaylı soydaşlarımızın ailələri uzun illərdir ki, böyük həsrətlə onların taleyi barədə məlumat almaq istəyirlər. Lakin bununla bağlı Ermənistana dəfələrlə müraciətlər edilməsinə baxmayaraq, qarşı tərəf itkin düşmüş şəxslərin taleyi, habelə amansız işgəncələrə məruz qoyulmaqla qətlə yetirilmiş, daha sonra cəsədləri təhqir olunmuş azərbaycanlı əsir və girovların kütləvi şəkildə basdırıldığı yerlər barədə məlumat verməkdən imtina etməklə onların ailələrini bu hüquqdan da məhrum etmişdir.

Halbuki "Müharibə zamanı mülki əhalinin müdafiəsi haqqında" IV Cenevrə Konvensiyasına əsasən, münaqişənin hər bir tərəfi müharibə nəticəsində ayrı düşmüş ailə üzvlərinin bir-biri ilə əlaqə yaratmasına və əgər mümkündürsə, görüşmək üçün apardıqları axtarışa kömək göstərməlidir. Bu Konvensiya ailə üzvlərinin öz yaxınlarının taleyi barəsində məlumat almaq hüququnu bilavasitə tanıyır. Bu hüquq həmçinin Avropa Şurasının Parlament Assambleyasının bir sıra Tövsiyələrində (868; 1056 və s.) də öz əksini tapmışdır.

BMT-nin Baş Assambleyasının 1974-cü il 6 noyabr tarixli Qətnaməsində münaqişə tərəflərinə itkin düşmüş şəxslər barəsində məlumatların qarşılıqlı olaraq verilməsi tövsiyə olunmuşdur. Eyni zamanda, BMT-nin İnsan Hüquqları Komissiyasının 2002-ci ildə qəbul etdiyi müvafiq Qətnamədə silahlı münaqişənin qarşı tərəfinin itkin düşmüş şəxslərin axtarışında iştirak etməsi bir öhdəlik olaraq nəzərdə tutulmuşdur.

Göründüyü kimi, itkin düşmüş şəxslər barəsində ailə üzvlərinə məlumatların verilməməsi həmin ailə üzvlərinin beynəlxalq insan hüquqları və beynəlxalq humanitar hüquqda təsbit edilmiş "ailə həyatına hörmət" prinsipinin kobudcasına pozulmasıdır. Buraya həyatını itirmiş şəxslər barəsində məlumatlar da daxildir. Eləcə də, münaqişənin qarşı tərəfi itkin düşmüş şəxsi axtarmağa yardım etmək öhdəliyini daşıyır.

Xüsusilə qeyd etmək lazımdır ki, 1992-ci ildən itkin ailələrinə öz yaxınlarının taleyini öyrənmək sahəsində dəstək göstərən BQXK Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü ilə əlaqədar itkin düşmüş şəxslərə dair məlumatların toplanması və mərkəzləşdirilməsi sahəsində mühüm funksiyaya malikdir. Bu müddət ərzində həmin insanların ailə üzvlərindən bioloji nümunələr götürülmüş və artıq bazada 3000-ə yaxın nümunə toplanmışdır.[25]

[25] https://mfa.gov.az/az/news/no03822

İnkaredilməz həqiqət budur ki, əsir və girovluqdan azad edilmiş hərbi qulluqçuların, mülki şəxslərin, habelə hadisə şahidi olmuş digər vətəndaşların ifadələri, jurnalist müsahibələri, son zamanlar işğaldan azad olunmuş ərazilərimizdə aşkar olunan kütləvi məzarlıqlar, habelə müxtəlif mənbələrdən əldə olunmuş başqa məlumatlar Birinci Qarabağ müharibəsi dövründə itkin düşmüş azərbaycanlıların Ermənistan tərəfindən əsir-girov götürülməsi, saxlanması və qətlə yetirilməsi faktlarını sübut edir.

Əsir və girovluqda qaldıqları müddətdə dözülməz fiziki və mənəvi-psixoloji işgəncələrə məruz qalmış, aldığı ağır xəsarətlər nəticəsində sağlamlığını itirməsi səbəbindən ömürlük əlilliyə məhkum olunmuş yüzlərlə azərbaycanlı bu gün də fiziki və psixi sağlamlıqla bağlı problemlərdən əziyyət çəkir.

Ermənistanın siyasi-hərbi rəhbərliyi yalnız Birinci Qarabağ müharibəsi dövründə deyil, tərəflər arasında ilk uzunmüddətli atəşkəs rejiminin elan olunduğu 1994-cü ildən sonrakı illərdə də qeyri-qanuni olaraq Azərbaycanın mülki şəxslərinin girov götürülərək həbs edilməsinə rəvac vermişdir. Bu isə açıq-aşkar dinc azərbaycanlılara qarşı etnik zəmində nifrətin bariz təzahürüdür.

Azərbaycan Ombudsmanı Ermənistanın ölkəmizə qarşı hərbi təcavüzü nəticəsində itkin düşmüş şəxslərin və ailələrinin hüquqlarının müdafiəsini daim diqqət mərkəzində saxlayır. Əsir və girov götürülmüş, itkin düşmüş şəxslərə münasibətdə beynəlxalq humanitar hüquq qaydalarının kobud şəkildə pozulması, onların işgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəzaya məruz qalmaları, habelə digər faktlarla bağlı Ombudsman tərəfindən BMT, Avropa Şurası, BQXK və digər səlahiyyətli beynəlxalq və regional təşkilatlara fərdi şəkildə müraciətlər ünvanlanmışdır.

Hazırkı hesabatda qeyd edilən faktlar da daxil olmaqla, qaldırdığımız bütün məsələlər çox ciddi insan hüquqları pozuntularıdır və beynəlxalq təşkilatlar tərəfindən konkret qərarların qəbulunu, tədbirlərin görülməsini tələb edir. Çünki tarixi torpaqlarının təqribən 20 faizi 30 ilə yaxın bir dövrdə Ermənistanın işğalı altında qalmış, bir milyondan çox vətəndaşı uzun illərdir ki, müxtəlif çətinliklərlə dolu qaçqın və məcburi köçkün həyatı yaşayan Azərbaycan Respublikası bu gün də ədalətsiz və əsassız olaraq məruz qaldığı hərbi təxribatların acı nəticələrindən əziyyət çəkməkdədir.

Azərbaycan Ombudsmanı olaraq, beynəlxalq təşkilatları və bütövlükdə dünya ictimaiyyətini Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində Birinci Qarabağ müharibəsi dövründə itkin düşmüş soydaşlarımızın taleyinə aydınlıq gətirilməsinə, hələ də sağ qalanların ölkəmizə təhvil verilməsinə, qətlə yetirilən şəxslərin kütləvi şəkildə basdırıldığı yerlər barədə dəqiq məlumatın təqdim olunmasına və müharibə cinayətlərinin törədilməsində təqsirkar olan şəxslərin beynəlxalq hüquqi məsuliyyətə cəlb edilməsinə yardımçı olmağa çağırıram.

**Azərbaycan Respublikasının**
**İnsan Hüquqları üzrə Müvəkkili**
**(Ombudsman)**

**Rəsmi internet səhifəsi:** **www.ombudsman.az**

**"Facebook":** ombudsman.az

**"X":** az_ombudsman

**"Instagram":** ombudsman_ azerbaijan

**"Youtube":** Ombudsman of Azerbaijan

**"Telegram":** OmbudsmanAz Səbinə Əliyeva

**Çağrı Mərkəzi: 916**

**Tel/Fax: (+99412) 493 74 22, (+99412) 498 23 65**

**Elektron poçt: ombudsman@ombudsman.az**
**apparat@ombudsman.az**

**AZ 1000, Bakı şəhəri, Üzeyir Hacıbəyli 80, II Ala qapı**